# Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü ilin altı ayı üzrə fəaliyyətinə dair məlumat

Hesablama Palatası 2023-cü ilin birinci yarısında fəaliyyətini əvvəlki illərdə olduğu kimi, Hesablama Palatasının “2021-2025-ci illər üzrə Strateji Plan”ı və illik İş Planı əsasında həyata keçirmişdir.

Hesablama Palatasının 2023-cü ilin altı ayı üzrə fəaliyyətinə dair məlumat hesabat dövrü ərzində həyata keçirilmiş tədbirlər barədə məlumatları xülasə şəklində əks etdirir.

***Strateji Planın hesabat dövründə icra vəziyyəti***

2023-cü ilin birinci yarısında Hesablama Palatası Strateji Planın icrasını təmin etmək məqsədilə tərtib edilmiş illik Əməliyyat Planında nəzərdə tutulmuş tədbirləri həyata keçirmişdir. Əməliyyat Planında baxılan dövr üçün 120 tədbir müəyyənləşdirilmiş, dövrün sonuna bu tədbirlər üzrə icra vəziyyəti 90,8% təşkil etmişdir.

***Dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və icrasına dair Rəylər***

Hüquqi aktların tələblərinə uyğun olaraq, 2023-cü ilin ilk 6 ayında Hesablama Palatası büdcə prosesində aktiv iştirakını təmin etmiş, dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrası və yenidən baxılan layihələrinə dair rəylərini hazırlayaraq aidiyyəti üzrə təqdim etmişdir (Şəkil 1). Bundan əlavə, müvafiq icra hakimiyyəti orqanına 2022-ci ilin dövlət büdcəsinin icrasının təhlili barədə illik məlumat hazırlanaraq təqdim olunmuşdur. Rəylərin oxunaqlılığının təmin olunması məqsədilə beynəlxalq təcrübəyə uyğun olaraq dövlət büdcəsinin icrası ilə bağlı hazırlanmış rəy üzrə xülasə tərtib edilmişdir.

**Şəkil 1. 2023-cü ilin ilk 6 ayında Hesablama Palatasının büdcə prosesində iştirakı**




Müvafiq rəylər[1] və xülasə[2] tam həcmdə Hesablama Palatasının rəsmi internet səhifəsində yerləşdirilmişdir.

[1] https://sai.gov.az/filter?type=rey
[2] https://sai.gov.az/budce-xulasesi#rey

## Kənar dövlət maliyyə nəzarəti tədbirləri

2023-cü ilin İş Planına əsasən hesabat ilinin birinci yarımilində Hesablama Palatasının Kollegiyası tərəfindən 31 kənar dövlət maliyyə nəzarəti tədbirinin (bundan sonra – nəzarət tədbiri), o cümlədən 2 auditin “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq keçirilməsi ilə bağlı qərar qəbul edilmişdir (Şəkil 2).

**Şəkil 2. 2023-cü ilin ilk 6 ayında keçirilməsi ilə bağlı qərar qəbul edilmiş nəzarət tədbirlərinin bölgüsü**




*Qeyd: Naxçıvan Muxtar Respublikası üzrə İdarənin İş Planına əsasən keçirilən nəzarət tədbirləri yuxarıdakı statistikaya daxil edilməmiş və ayrıca təqdim olunmuşdur.*

Qeyd edək ki, nəzarət obyektlərinin 5-də ilk dəfə nəzarət tədbirinin keçirilməsinə başlanılmış, 9 layihə və proqram əvvəlki auditlərlə əhatə olunmamışdır.

Nəzarət obyektləri arasında 12 mərkəzi icra hakimiyyəti orqanı, 8 publik hüquqi şəxs, 3 dövlət mülkiyyətində olan və dövlətin səhmi (payı) olan müəssisə, 1 büdcədənkənar dövlət fondu, 6 mərkəzi icra hakimiyyəti orqanı tabeliyində və yanında olan təşkilat, 1 təhsil müəssisəsi və digər təşkilati-hüquqi formaya malik qurumlar olmuşdur.

Hesabat dövründə uyğunluq auditinin payı ümumi portfeldə üstünlük təşkil etmişdir. 2023-cü ilin ilk 6 ayı ərzində 2 səmərəlilik auditinin keçirilməsi ilə bağlı kollegiya qərarı qəbul edilmişdir (Şəkil 3). Səmərəlilik auditləri Azərbaycan Respublikasında uşaqların yoluxucu xəstəliklərə qarşı immunoprofilaktikası sahəsində həyata keçirilən fəaliyyətin və toxumçuluq sahəsində fəaliyyətin nəticəliliyinin qiymətləndirilməsi mövzularını əhatə edir. Qeyd edək ki, həyata keçirilən bir sıra auditlərdə informasiya sistemlərinin auditinin bəzi elementlərindən də istifadə edilməkdədir.

**Şəkil 3. 2023-cü ilin ilk 6 ayında keçirilməsi ilə bağlı qərar qəbul edilmiş auditlərin bölgüsü**




*Qeyd: 1 halda uyğunluq auditi maliyyə auditi ilə birgə keçirilmişdir.*

Baxılan dövr ərzində 11 nəzarət tədbirinin, o cümlədən 10 audit (8-i uyğunluq, 1-i maliyyə auditi və 1-i səmərəlilik auditi olmaqla) və 1 analitik fəaliyyətin nəticələri üzrə auditor hesabatları kollegiya qərarı ilə təsdiq edilmişdir. Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin İş Planı üzrə 4 nəzarət tədbiri keçirilməsi ilə bağlı qərar qəbul edilmiş, 2-si başa çatdırılmışdır.

Hesabat dövründə aparılmış nəzarət tədbirlərinin nəticələrini nəzərə alaraq Hesablama Palatası bəzi ***riskləri** və **diqqətə alınmalı məqamları*** qeyd edir:

✓ Qurumlar tərəfindən dövlət satınalmalarının hazırlıq mərhələsində ehtiyacların düzgün müəyyənləşdirilməməsi və satınalmaların icrası zamanı vəsaitə qənaət olunmaması;

✓ bəzi qurumlar üzrə daxili idarəetmə və işlərin təşkili ilə bağlı qərarların vaxtında verilməməsi nəticəsində vəsaitlərin icrasının gecikməsi və ya müəyyən edilmiş müddət ərzində icra edilməməsi;

✓ bəzi sahələr üzrə strateji sənədlərin qəbul edilməməsi və sahə üzrə əsas performans göstəricilərinin çatışmazlığının icra edilmiş vəsaitlə nəticə arasında əlaqənin ölçülməsi imkanlarını məhdudlaşdırması;

✓ bəzi qurumlar üzrə nəzarət mexanizmlərinin zəif olması fonunda maliyyə hesabatlarında təhriflərə yol verilməsi, həmçinin əvvəlki illərdə büdcə təşkilatı olan qurumların publik hüquqi şəxsə çevrilməsindən sonra maliyyə uçotu və hesabatlılığının yeni çərçivəyə tam uyğun aparılmaması;

✓ dövlət qurumlarının proqram təminatları və bazalarının inteqrasiyasında çətinliklər və qurulan sistemlərin tam işlək olmaması, başqa sözlə müvafiq proqram təminatının olması fonunda proseslərin idarəedilməsi, o cümlədən uçot və statistikanın rəqəmsal alət vasitəsilə tam dəstəklənməməsi;

✓ qurumlar tərəfindən büdcədənkənar fəaliyyətdən əldə olunan gəlirlərin reallaşdırılması üçün səlahiyyətləri çərçivəsindən bütün potensialdan istifadə olunmaması;

✓ layihə smeta sənədlərinin tikinti işlərinin aparılması ilə eyni vaxtda hazırlanmasının layihələrin icrasında uyğunsuzluq hallarına səbəb olması;

✓ tibb sahəsi üzrə ştatların artımında qeyri-funksional fəaliyyət üzrə heyətə üstünlük verilməsi və funksional fəaliyyət üzrə keyfiyyətli xidmətin təqdim edilməsində risklərin formalaşması;

✓ dövlət sektoru üzrə ştat sayının optimallaşdırılmasına ehtiyac duyulması.

**Audit təsiri**

Yol verilmiş pozuntuların aradan qaldırılması, eyni zamanda fəaliyyətin müxtəlif istiqamətlər üzrə gücləndirilməsi məqsədilə Hesablama Palatasının kollegiya qərarlarında 26, o cümlədən 14 maliyyə və 12 prosedur xarakterli təklif verilmişdir.

2023-cü ilin İş Planı üzrə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri əsasında qəbul edilmiş kollegiya qərarlarına əsasən pul, əvəzləşmə və natura ifadəsində, eləcə də vergi öhdəliklərinin dövlət büdcəsinə hesablanması şəklində cəmi 22,9 mln. manat vəsaitin bərpası istiqamətində təkliflər verilmişdir.

Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin İş Planı üzrə keçirilmiş nəzarət tədbirləri də nəzərə alınmaqla baxılan dövrdə həm əvvəlki ilin, həm də 2023-cü ilin İş Planına əsasən keçirilmiş 7 auditin nəticələri ilə bağlı materiallar hüquq-mühafizə və prokurorluq orqanlarına göndərilmişdir. Hesabat ilinin İş Planı üzrə keçirilmiş auditlərin nəticələrinə əsasən, hüquq-mühafizə və prokurorluq orqanlarına təqdim edilmiş materiallar üzrə ehtimal olunan hüquq pozuntularının məbləği təxminən 23,2 mln. manata bərabər olmuşdur.

Cari ilin İş Planına əsasən başa çatdırılmış nəzarət tədbirləri ilə aşkarlanmış 23,4 mln. manat məbləğində maliyyə pozuntuları üzrə bərpa haqqında qərar qəbul edilməmişdir. Qeyd edək ki, bu məbləğin əsas hissəsini əhaliyə sosial xarakterli ödənişlər təşkil edir.

Yuxarıda göstərilənlərlə yanaşı, auditlər zamanı rast gəlinən pozuntular arasında vəsaitlərin təyinatdankənar istifadəsi, satınalma tətbiq olunmadan vəsaitin icrası, vəsaitlərin səmərəsiz xərclənməsi kimi hallara da rast gəlinmişdir ki, belə hallar üzrə maliyyə pozuntularının məbləği 1,5 mln. manat təşkil etmişdir.

Nəzarət tədbirlərinin nəticələri ilə bağlı zəruri addımların atılması məqsədilə 10 halda nəzarət obyektlərinə, eyni zamanda 7 halda onların yuxarı orqanlarına auditor hesabatı və kollegiya qərarları göndərilmişdir. 2023-cü ilin İş Planına əsasən başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri Milli Məclisə təqdim olunmuşdur. 3 tədbir üzrə Nazirlər Kabinetinə, 3 tədbir üzrə aşkar edilmiş aidiyyəti nöqsanlarla əlaqədar səlahiyyətləri çərçivəsində tədbirlərin görülməsi məqsədilə, eləcə də öhdəliyə götürülməyən borcların ödənilməsi, maliyyə hesabatlarında müəyyən edilmiş təhriflər barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, 1 tədbirlə əlaqədar müstəqil auditor tərəfindən audit edilmiş maliyyə hesabatları üzrə yol verilmiş nöqsanlar barədə Auditorlar Palatasına məlumat verilmişdir.

Hesabat dövründə də əvvəlki illərdə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri üzrə qurumlar tərəfindən atılmış addımların icrasının izlənilməsi (follow-up) diqqətdə saxlanılmış, əvvəlki illərin nəzarət tədbirləri üzrə dövlət vəsaitinin bərpa təklifi ilə bağlı qalan

25,5 mln. manatın 5,9 mln. manatının 2023-cü ilin ilk 6 ayında pul və əvəzləşdirmə formasında bərpası təmin edilmişdir.

**Cari fəaliyyət**

Qəbul edilmiş təlim proqramlarına əsasən, 2 ali təhsil müəssisəsində (Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Mühəndislik Universiteti) “Dövlət auditi” mövzusunda daxili və kənar resurslar hesabına təlimlər keçirilmiş, təlimlərə 85 tələbə cəlb olunmuşdur.

Hesabat dövrü ərzində də Hesablama Palatasının metodiki bazasının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmiş, yeni metodiki sənədlərin qəbul edilməsi ilə yanaşı, bəzi metodiki sənədlər beynəlxalq standartlar və təkmil təcrübələr nəzərə alınmaqla təkmilləşdirilmişdir. Risklərin idarəedilməsi, eləcə də dövlət satınalmalarının auditinə dair təlimatların və maliyyə hesabatları və dövlət büdcəsinin icrasına dair hesabatların qarşılıqlı təhlilinə dair metodiki sənədin layihələri hazırlanmışdır.

Rəqəmsallaşma istiqamətində işlər davam etdirilmiş, beynəlxalq təcrübədən yararlanaraq kollegiya qərarlarının nəticələrinin izlənməsi prosesi elektronlaşdırılmışdır. Bununla yanaşı, Resursların İdarəolunmasının Daxili Elektron Sistemində yaradılmış yeni modullar Hesablama Palatasının əməkdaşları üçün müəyyənləşdirilmiş tapşırıqların icrasını elektron şəkildə izləmək və Hesablama Palatasına təqdim olunan dövlət büdcəsinin icrasına dair hesabatları sürətli emal etmək imkanı yaratmışdır.

Hesablama Palatası beynəlxalq əməkdaşlığı hesabat dövründə də diqqətdə saxlamış, ASOSAI-ın Dayanıqlı İnkişaf Məqsədləri üzrə İşçi Qrupunun illik toplantısına ev sahibliyi etmişdir.

Hesablama Palatası, əvvəlki illərdə olduğu kimi, bu ildə də hesabatlılığın təmin olunmasına xüsusi diqqət ayırmış, başa çatmış bir sıra auditlər barədə auditor hesabatları və xülasələr “Dövlət auditi” rüblük rəsmi məlumat bülletenində dərc edilmişdir. Bülletenin ilk iki buraxılışında 10 nəzarət tədbiri barədə məlumat verilmiş, Hesablama Palatasının əməkdaşları tərəfindən hazırlanmış məqalələr, eləcə də beynəlxalq əməkdaşlıq istiqamətində görülmüş işlər barədə məlumatlar dərc olunmuşdur.

2023-cü ilin ölkə başçısı tərəfindən “Heydər Əliyev” ili elan edilməsi ilə bağlı Hesablama Palatası tərəfindən Ümummilli Liderin əziz xatirəsinə həsr edilmiş silsilə yubiley tədbirləri keçirilmiş, bu tədbirlər barədə ictimaiyyətə ətraflı məlumat verilməsi məqsədilə Hesablama Palatasının rəsmi internet səhifəsində müvafiq alt bölmə yaradılmış, eləcə də “Dövlət auditi” rüblük rəsmi məlumat bülleteninin 2-ci nömrəsində “100 illik” adlı rubrika oxuculara təqdim edilmişdir.